6 noyabr / 2021

# İslam Sadığın iki kitabı işıq üzü görüb







Tanınmış şair, filologiya elmləri doktoru İslam Sadığın "Nizami Gəncəvi türkdürmü" kitabı Azərbaycan Dövlət Nəşriyyatında işıq üzü görüb. Kitabda dahi Azərbaycan şairi Nizami Gəncəvinin türk ağız ədəbiyyatından bəhrələnmələri geniş müstəvidə araşdırılmış, onun "Xəmsə"sinin bütün ruhunun öz doğma xalqının ağız ədəbiyyatıyla yoğrulduğu çoxsaylı örnəklər əsasında öz təsdiqini tapmışdır.

Alimin "Azərnəşr"də işıq üzü görmüş ikinci kitabı "Yusif Vəzir Çəmənzəminli və Şumer qaynaqları" adlanır. Araşdırmaçı bu kitabında yazıçının "Qızlar bulağı" romanındakı Şumer motivlərini və Tanrı obrazlarını araşırdırmışdır. İslam Sadıq yazıçının araşdırıcılarının Şumer qaynaqları ilə tanış olmadıqlarını və buna görə indiyə qədər həmin məsələlərə toxunmadıqlarını vurğulamışdır. Romandakı Şumer motivləri ilk dəfə araşdırılmışdır.

***Pərinaz SADIQLI,***
*tarix üzrə fəlsəfə doktoru*